

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 106(23.993)

*9 iyun 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Səbail rayonunda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısına məlumat verilib ki, paytaxtın Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Prezident İlham Əliyev yeni parkdan paytaxtın mənzərəsini seyr edib.



## Muxtar respublika bələdiyyələrinə yeni kommunal təyinatlı texnikalar verilib

Muxtar respublikada həyata keçirilən kompleks quruculuq işlərinin nəticəsidir ki, bütün yaşayış məntəqələri həm müasir görkəm alır, həm də təmizliyi və abadlığı ilə diqqəti cəlb edir. Eyni zamanda yaşayış məntəqələrində kommunal xidmətlərin yaxşılaşdırılması, məişət tullantılarının yığılması və daşınması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Görülən bu işlər bələdiyyələrin fəaliyyətinin gücləndirilməsinə də töhfə verir.





İyunun 8-də muxtar respublika bələdiyyələrinə kommunal təyinatlı 13 traktor və qoşqusu təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikanın kənd və qəsəbələrində bələdiyyələr üçün müasir tələblərə cavab verən kommunal təyinatlı texnikalar alınır, onlar öz ərazilərində məişət tullantılarının yığılması, müvafiq sahələrə daşınması və zərərsizləşdirilməsini həyata keçirirlər. Son 4 il ərzində Ali Məclis Sədrinin tapşırığına əsasən 75 kommunal təyinatlı texnika, 4 xidməti minik avtomobili, 1360 məişət tullantısı konteyneri bələdiyyələrin və kommunal təsərrüfatı idarələrinin istifadəsinə verilmişdir. Bələdiyyələr öz işləri ilə yanaşı, qonşu bələdiyyə ərazilərinə də müqavilə əsasında xidmət göstərmə imkanına malikdirlər. Bu gün təqdim olunan texnikaların vəsaiti bələdiyyələrin öz yığımları və gəlirləri hesabına ödənilmişdir. Səbuhi Məmmədov yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ölkəmizdə bələdiyyələrin fəaliyyəti "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Buna uyğun olaraq muxtar respublikada da tədbirlər görülür, bələdiyyələr üçün lazımi şərait yaradılır. Bu gün muxtar respublikada 170 bələdiyyə vardır. Kənd mərkəzlərində icra nümayəndəliyi, bələdiyyə, tibb xidməti, poçt məntəqəsi, rabitə evi, sahə müvəkkili, kitabxana və digər sahələr bir mərkəzdən əhaliyə xidmət göstərir. Hər bir ərazinin idarəetmə qurumları olmalıdır. Bələdiyyələr də əhali tərəfindən seçilmiş və fəaliyyətləri təmin olunmuş orqandır. Ancaq onların fəaliyyətinin təmin olunması üçün dövlət dəstəyinə ehtiyac vardır. Ona görə də ərazidə kənd mərkəzləri qurularkən bələdiyyələr üçün də iş şəraiti yaradılır. Muxtar respublikanın bələdiyyələri qanunvericiliyə uyğun olaraq müxtəlif istiqamətlərdə fəaliyyət göstərirlər. Bunlardan biri də kommunal xidmətlərin göstərilməsidir. Artıq bu fəaliyyət sahəsi özünü doğruldub. Ona görə də bələdiyyələr üçün lazımı şərait yaradılır, texnikalar, təmizlik qutuları alınıb verilir.



Ali Məclisin Sədri işini günün tələbləri səviyyəsində quran bələdiyyələrə təşəkkür edərək demişdir: Bələdiyyələrin istifadəsinə verilən texnikalar fəaliyyətlərini xeyli yaxşılaşdıracaq, ərazidə abadlıq və təmizlik işlərinin vaxtında aparılmasını təmin edəcəkdir. Lakin bələdiyyələrin fəaliyyəti bununla məhdudlaşmamalı, rayon və şəhər icra hakimiyyətləri bələdiyyələrlə sıx əməkdaşlıq etməli, illik proqramlar tərtib olunmalı, fəaliyyət proqramları hazırlanıb həyata keçirilməlidir. Bu gün yerlərdə müxtəlif işlər həyata keçirilir, kaptajlar, artezian quyuları qazılır, əhalinin su təminatını yaxşılaşdırmaq üçün kəhrizlər təmizlənir, içməli su şəbəkələri qurulur, abadlıq işləri aparılır, yollar, qaz, elektrik xətləri yenilənir. Bütün bunların qorunmasında, səmərəli istifadəsində bələdiyyələr də iştirak etməlidirlər.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada hər il yaz-payız iməcilikləri keçirilir. Lakin bu günə qədər bəzi bələdiyyələr istisna olmaqla digər bələdiyyələr tərəfindən iməciliklər təşkil olunmamış, yaşıllaşdırma işlərinə, bələdiyyə bağlarının salınmasına təşəbbüs göstərilməmişdir. Bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsində də nöqsanlar vardır. Bələdiyyələrlə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti arasında heç bir əməkdaşlıq yoxdur. Hər il əkinəyararlı bələdiyyə torpaqları icarəyə verilməli, ərazinin iqlim və torpaq xüsusiyyətlərinə uyğun bitkilər əkilməli, yerli icra hakimiyyətləri və bələdiyyələr bu işdə məsuliyyəti artırmalıdırlar. Rayon və şəhər icra hakimiyyətləri yaradılan şəraitdən səmərəli istifadə etməli, yerli özünüidarəetmə orqanı olan bələdiyyələr əhali ilə sıx işləməli, muxtar respublikada, ölkəmizdə həyata keçirilən bütün tədbirlərdə onların fəaliyyəti təmin olunmalıdır. Bələdiyyələr sudan istifadəyə, yaşıllıqların qorunmasına nəzarət etməli, ərazidə əhalinin istifadəsində olan nə varsa, onların qorunmasına və səmərəli istifadəsinə nail olmalıdırlar. Bir sözlə, bu sahədə fəaliyyət qanunauyğun təşkil edilməli, bələdiyyələrin fəaliyyəti daha da genişləndirilməlidir.

Ali Məclisin Sədri bələdiyyələrin yaradılan şəraitdən səmərəli istifadə edəcəklərinə və qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcəklərinə əminliyini bildirmiş, onlara işlərində uğurlar arzulamışdır.

Şahbuz rayon Keçili bələdiyyəsinin sədri Əli Kərimov yaradılan şəraitə görə bələdiyyələr adından minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində səylə çalışacaqlarına söz vermişdir.

Sonra texnikalara baxış olmuşdur. Məlumat verilmişdir ki, yeni kommunal təyinatlı 13 traktor və qoşqusu Şərur rayonunun Çərçiboğan, Püsyan, Mahmudkənd, Babək rayonunun Nehrəm, Cəhri, Ordubad rayonunun Nüsnüs, Biləv, Culfa rayonunun Yaycı, Saltaq, Şahbuz rayonunun Keçili, Ağbulaq, Kəngərli rayonunun Xıncab və Sədərək rayonunun Dəmirçi bələdiyyələrinin istifadəsinə verilir. Yeni texnikalar qeyd olunan yaşayış məntəqələrində əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsini yüksəldəcək, məişət tullantılarının vaxtında daşınmasına şərait yaradacaqdır.

Ali Məclisin Sədri təmizlik işlərinin diqqətdə saxlanılması, texnikalardan səmərəli istifadə olunması, sudan istifadə ilə bağlı əhali arasında maarifləndirmə işlərinin aparılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Startap layihələrinin təqdimatı keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən iqtisadi sahədə startap layihələrinin təqdimatına həsr olunmuş tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Dövlət Universitetinin Dövlət Gömrük Komitəsinin hamiliyinə verilmiş Dünya iqtisadiyyatı və Beynəlxalq ticarət və logistika ixtisaslarında təhsil alan və startap komandalarında təmsil olunan tələbələri iştirak edib.

Tədbiri giriş sözü ilə komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli açaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 3 aprel 2019-cu il tarixli Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, hami təşkilat olaraq Naxçıvan Dövlət Universitetinin Dünya iqtisadiyyatı ixtisası üzrə təhsil alan tələbələrinə “İdeyadan başlanğıca” devizi altında startap layihələrinin hazırlanmasında köməklik göstərilməsi və onların dəyərləndirilməsi diqqətdə saxlanılıb. Bu sahədə qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsi məqsədilə cari tədris ilinin əvvəlində təsdiqlənmiş birgə tədbirlər planına əsasən müvafiq işlər görülüb, komitədə yaradılmış İnnovasiya Mərkəzi, Ekspert şurası və İnnovasiya laboratoriyasının imkanlarından istifadə edilib. Tələbələrin iştirakı ilə gömrük işinə dair müxtəlif mövzularda keçirilmiş praktik seminar və görüşlər, tələbələrin gömrük orqanlarının fəaliyyəti ilə yerindəcə tanışlığının təşkili, gömrük orqanlarında iki aya yaxın davam edən istehsalat təcrübəsi iqtisadi sahədə yeni innovativ ideyaların formalaşması və startapların meydana çıxması baxımından əhəmiyyətli olub.

Komitənin İnnovasiya Mərkəzinin rəhbəri, gömrük xidməti polkovnik-leytenantı Rahil Tahirli muxtar respublikamızda startap hərəkatının geniş vüsət almasından danışıb. Bildirilib ki, iqtisadi sahədə innovativ layihələrin hazırlanması ilə bağlı görülmüş işlərin nəticəsi olaraq, ümumilikdə, 9 layihə üzərində iş aparılıb, gələcək perspektivi, iqtisadi və sosial əhəmiyyəti nəzərə alınaraq uğurlu layihələr “Startap Naxçıvan” portalına təqdim olunub.

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent Əşrəf Ələkbərov qeyd edib ki, ali təhsil ocağı ilə gömrük xidməti arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması və birgə tədbirlər planının həyata keçirilməsi tələbələrə səmərəli innovasiya mühitinin formalaşması və innovativ təkliflərin dəyərləndirilməsi üçün əlverişli şərait yaradır.

Sonra Naxçıvan Dövlət Universitetinin Dünya iqtisadiyyatı ixtisası üzrə IV kurs tələbələrinin hazırladıqları üç yeni layihənin təqdimatı olub. Tələbələrdən Kamal Babazadə Naxçıvanda elektron ticarət platforması – “N-TRADE”, Hüseyn Vəlizadə turizm sahəsində elektron bələdçi – “NAXTRAVEL”, Səkinə Osmanlı isə işləyən qadınlara ev işlərində və sosial həyatda köməkçi xidmətlər təklif edən “Happy Business Lady” layihələrini təqdim ediblər. Təqdimatlar zamanı layihələr üzrə müzakirələr aparılıb, təkliflər dəyərləndirilib, təqdimatların təkmilləşdirilərək “Startap Naxçıvan” portalına təqdim olunması qərara alınıb.

“N-TRADE” layihəsi “Ən yaxşı layihə” nominasiyası üzrə qalib elan olunub. Hər üç layihə üzrə startap komandalarının kapitanlarına sertifikat və pul mükafatları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Gömrük Komitəsinin***
***mətbuat xidməti***

## Tələbələr İtaliyada təcrübədə olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq Sərəncama əsasən Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Energetika mühəndisliyi ixtisası Naxçıvan Dövlət Energetika Xidmətinin hamiliyinə verilib. Qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı hamiliyə verilən ixtisasın tələbələrinin təyin olunan proqram çərçivəsində enerji istehsalı prosesləri, yeni texnologiyaların tətbiqi, alternativ və bərpa olunan enerji sahəsində inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi, praktik biliklərin artırılması üçün xarici dövlətlərin təcrübələrindən istifadə edilməsi həyata keçirilir.

Görülən işlərin davamı olaraq Naxçıvan Dövlət Energetika Xidmətindən 3 nəfər mühəndis və universitetin Energetika mühəndisliyi ixtisasında təhsil alan 6 tələbə və müəllim heyətinin İtaliya Respublikasına səfəri təşkil edilib. İtaliyadan təyin edilən heyətin başçılığı ilə əvvəlcədən planlaşdırılan proqrama uyğun olaraq səfərin ilk günü Florensiya şəhəri ilə tanışlıq olub. Şəhərin tarixi yerləri, meydanları, abidələri ilə birlikdə Florensiyanın məşhur incəsənət muzeyinə baxış olub. Burada tələbələr Donatello, Mikelancelo, Leonardo da Vinçi, Sandro Botçelli kimi dünyaca görkəmli rəssamların nadir sənət əsərləri ilə tanış olublar.



Səfərin növbəti günü tələbələr Florensiya şəhərində yerləşən “Fimer” şirkətinin təlim mərkəzində olaraq yeni texnologiyalardan biri – invertorlar haqqında mühazirə dinləyiblər. Mühazirədə invertorların quruluşu, iş prinsipi, daxilində gedən enerji dəyişmələri, tətbiq sahələri və digər vacib məlumatlar diqqətə çatdırılıb. Qarşılıqlı sual-cavab əsasında təşkil edilən mühazirədə tələbələrin sualları ətraflı şəkildə cavablandırılıb. Sonra həmin şirkətin ərazisində yerləşən Günəş Elektrik Stansiyasına baxış zamanı tələbələr ərazidə quraşdırılan invertorlarla, günəş panelləri və yarımstansiyalarla tanış olublar.

Səfərin üçüncü günündə Roma şəhərindən dəvət edilmiş professor tərəfindən Günəş və külək enerji qurğularının iş prinsipi, quruluşu, quraşdırılması, onlar arasındakı məsafələr, panellərin Günəşə nəzərən istiqamətləri, külək enerji qurğularının küləyin istiqamətindən və sürətindən asılı olaraq yerləşdirilməsi və digər məlumatlar təlim mərkəzində olan heyətə çatdırılıb. Tələbələr həmin şirkətə məxsus olan invertor istehsal edən müəssisədə təcrübədə olan zaman invertorların necə istehsal edildiyinin, onların hissələrinin necə quraşdırılaraq sonda hazır hala gəlməsinin əyani şahidi olublar.

Tələbələr üçün mühüm təcrübəvi əhəmiyyət kəsb edən səfərin son iki günündə Romada olan heyət burada İtaliyanın tarixini əks etdirən şəhərin tarixi abidələri, mərkəzi meydanları, incəsənət muzeyləri ilə tanış olublar.

***Naxçıvan Dövlət Universitetinin***
***Televiziya, mətbuat və***
***ictimaiyyətlə əlaqələr bölməsi***

## Sakinlərin internetə olan tələbatının ödənilməsi diqqətdə saxlanılır

***Rabitə sistemində yeni texnologiyaların tətbiqi günümüzün tələbləri sırasındadır. Bu məqsədlə Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərində və kəndlərdə də telekommunikasiya sistemlərinin qurulması, əhalinin dayanıqlı rabitə və yüksəksürətli internet xidmətləri ilə təmin olunması istiqamətində işlər davam etdirilir. Genişzolaqlı internet şəbəkəsini genişləndirmək üçün avtomat telefon stansiyalarında internet tutumları tələbata uyğun olaraq artırılır.***



Həyata keçirilən tədbirlərin davamı olaraq genişzolaqlı internetə tələbatın ödənilməsi məqsədilə Şərur rayonunun mərkəzində 2, Düdəngə kəndində isə 1 ədəd 32 yerlik internet plataları mövcud HUAWEI NGN tipli avtomat telefon stansiyalarına əlavə edilib. Bununla yanaşı, Babək rayonunun Cəhri qəsəbəsində, Ordubad rayonunun Dəstə və Sədərək rayonunun Dəmirçi kəndlərində də istismarda olan yeni nəsil avtomat telefon stansiyalarına, ümumilikdə, 3 ədəd 32 yerlik internet plataları artırılıb. İnternet tutumunun artırılması nəticəsində 200-ə yaxın internet istifadəçisinin tələbatının ödənilməsinə şərait yaradılıb.

Qeyd edək ki, cari ilin ötən dövrü ərzində Şərur, Babək və Şahbuz rayonlarının da bir sıra yaşayış məntəqələrində əhalinin internetə olan tələbatının ödənilməsi məqsədilə mövcud avtomat telefon stansiyalarının internet tutumları artırılıb, nəticə etibarilə, 1300-dən artıq istifadəçi genişzolaqlı internetlə təmin olunub.

Digər bölgələrdə də əhalini yüksəksürətli, genişzolaqlı xidmətlərlə təmin etmək üçün mövcud avtomat telefon stansiyalarının şəbəkə tutumlarının genişləndirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası***
***Rabitə və Yeni Texnologiyalar***
***Nazirliyinin mətbuat xidməti***

## “Dövlət qulluqçuları üçün vəzifə təlimatlarının hazırlanması qaydaları” mövzusunda seminar

Seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli açaraq bildirib ki, vəzifə təlimatı kadrların idarə edilməsi sisteminin müxtəlif fəaliyyətlərində istifadə edilən vacib elementlərdən biridir. Konkret vəzifə üçün tərtib edilən vəzifə təlimatı müəyyən vəzifənin funksiyalarının təsvir edilməsidir. Hər bir dövlət qulluqçusu fəaliyyətini vəzifə təlimatlarının tələblərinə uyğun olaraq həyata keçirir.



Qeyd olunub ki, vəzifə təlimatları “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu, inzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu və “Naxçıvan Muxtar Respublikasının 1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ikinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri”nin təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 yanvar tarixli qərarı əsasında tərtib edilir. Cari ilin aprel ayında həmin qərara bir sıra dəyişikliklər edilib. Bu qərara uyğun olaraq vəzifə təlimatları Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən qəbul edilir. Buna görə də vəzifə təlimatının tələb olunan qaydalara uyğun, düzgün şəkildə hazırlanması vacibdir. Bu gün keçirilən seminar da məhz bu məqsədə xidmət edir.

Sonra mərkəzin şöbə müdiri Samiq Salayev “Dövlət qulluqçuları üçün vəzifə təlimatlarının hazırlanması qaydaları” mövzusunda slayd vasitəsilə çıxış edib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət İmtahan Mərkəzinin***
***mətbuat xidməti***

## Muxtar respublikada əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi başa çatdırılıb

Muxtar respublikada əmək pensiyaçılarının rifah halının yüksəldilməsi ilə bağlı mütəmadi olaraq tədbirlər görülür, onlara göstərilən xidmətlərin operativliyi təmin edilir. Əmək pensiyalarının vaxtından əvvəl ödənilməsi də bu tədbirlərin davamıdır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu istiqamətdə üzərinə düşən vəzifələrin icrasını yerinə yetirib və hər ay olduğu kimi, iyun ayında da pensiyaların maliyyələşdirilməsi ilə bağlı işləri vaxtından əvvəl başa çatdırıb. Həmçinin qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib. Tələb olunan vəsait fondun xəzinə hesabından pensiyaçıların plastik bankomat kartlarına köçürülüb. İstəkləri nəzərə alınaraq kənd yerlərində yaşayan pensiyaçılara isə pensiyaları poçt bölmələri vasitəsilə ödənilib. Eyni zamanda məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsi də vaxtından əvvəl başa çatdırılıb. Müavinətlərin sığortaolunanların şəxsi hesablarına və ya yaşadıqları ərazi üzrə poçt ünvanlarına köçürülməsi təmin olunub.

Qeyd edək ki, pensiya və müavinətlərin ödənilməsi vətəndaşların məcburi dövlət sosial sığorta haqlarının vaxtında və tam məbləğdə ödəməsindən asılıdır. Bundan başqa, qanunvericiliyə əsasən sosial sığortahaqqı ödəməyən şəxslər gələcəkdə əmək pensiyası hüququndan və bir sıra sığorta hadisələrindən məhrum olurlar. Buna görə də vətəndaşların sosial sığorta sahəsində aktiv iştirak etməsi pensiya və müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsinə səbəb olmaqla yanaşı, onlara məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ da qazandırır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu pensiya və müavinətlərin hər ay vaxtından əvvəl ödənilməsi və pensiyaçıların rahat şəkildə pensiyalarını alması üçün müvafiq işləri bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Sosial Müdafiə Fondunun***
***mətbuat xidməti***

## Sahə baytar məntəqələrinin özəl baytarlıq xidməti fəaliyyətinə keçirilməsi əhəmiyyətli addımdır

Muxtar respublikada heyvandarlıq sahəsində əldə olunan nailiyyətlər əhalinin yerli ət və ət məhsulları, süd və süd məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Bu baxımdan, baytarlıq xidmətinin müasir tələblərə uyğun qurulması, maddi-texniki bazasının möhkəmləndirilməsi dövlətimizin əsas məqsədlərindəndir. Xidmətləri fermerlər üçün daha əlçatan etmək, rəqabət mühitində göstərilən xidmətlərin keyfiyyətini artırmaq məqsədilə davamlı islahatlar aparılır. Belə islahatlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 4 oktyabr tarixli “Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərmanıdır.

Həmin fərmanın icrasını təmin etmək məqsədilə ilkin olaraq Sədərək Rayon Baytarlıq İdarəsi üzrə bu tədbirlərə start verilmiş və mərhələli şəkildə Naxçıvan şəhəri, Kəngərli, Ordubad, Culfa, Babək, Şərur və Şahbuz rayonlarında fərdi baytarlıq xidmətləri göstərilməsinə keçid etmişdir. Fərdi baytarlıq fəaliyyəti üçün ali və orta ixtisas təhsilli baytar həkimlər Dövlət Baytarlıq Xidməti tərəfindən qeydiyyata alınaraq onlarla müqavilə bağlanmış, bu sahədə fəaliyyət göstərmələri təmin olunmuşdur.

Özəl baytarlıq xidmətinə keçilməsinin əsas məqsədi baytarlıq xidmətinin strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun təkmilləşdirilməsi, daha keyfiyyətli baytarlıq xidmətinə nail olunmaqla qida təhlükəsizliyinin yaxşılaşdırılması və nəticədə, insan və heyvan sağlamlığının təmin edilməsi, baytar həkimləri arasında rəqabət mühitinin formalaşdırılması ilə onların bilik və bacarıqlarının artırılması, heyvandarlıqla məşğul olan fermerlərin daha keyfiyyətli və səmərəli baytarlıq xidmətlərinə çıxışının təmin edilməsi, baytar həkimlərinin daha yüksək gəlir əldə etmələri üçün imkanların yaradılması və baytarlıq peşəsinin nüfuzunun artırılması, bu sahəyə gənc kadrların cəlb olunmasıdır.

Fərdi baytarlıq xidmətinə keçiddən sonra profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşən xüsusi təhlükəli xəstəliklərə qarşı aparılan tədbirlərin icrası (peyvəndlənmə, qan nümunələrinin toplanması və sair) xidməti müqavilə əsasında fərdi baytar həkimlər tərəfindən həyata keçirilməyə başlanılmışdır. Aparılan tədbirlərə görə, ödənişlər dövlət vəsaiti hesabına həyata keçirilir. Fermerlərin vəsaiti hesabına maliyyələşən digər xəstəliklər isə fərdi baytarlarla fermerlər arasında müqavilə və ya razılaşma əsasında ödənişli şəkildə həyata keçirilir.

**Hüseyn MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Baytarlıq Xidmətinin***
***əməkdaşı***

Jurnalistin qeydləri

# Əlincəçay boyunca...

***Bir yaz günündə – təbiətin axarlı-baxarlı vaxtında həzin nəğmə, zümzümə dalınca gəzirəm. Görünür, bu səs məni uzaqlara, çox uzaqlara aparacaq. İnsanın ruhunu dincəldən avazın mənbəyinədək gedib çıxmaqdır arzum. Təbiət həvəskarları üçün, bəlkə də, bu səsin əvəzi, alternativi yoxdur. Ovsunlayıcı sədanı daha yaxından duymaq üçün neçə-neçə kəndin sinəsindən ötüb keçməli, Ləkətağa, Boyəhmədədək uzanmalıyam. Amma bilirəm ki, buna görə zəhmət çəkməyə, yol yorğunluğu yaşamağa dəyər. Bəs nədir bu səs, nədir bu sehrli avaz? Bu, yaz aylarında gur, şaqraq sədası, bəndinə-bərəsinə sığmayan bol, göz yaşı kimi duru suyu ilə seçilən, bu həndəvərdəki kəndlərin bərəkət təknəsi sayılan Əlincəçaydır.***





Bu qolda yerləşən kəndlərdə nə yoxdur ki, İlahi. Zəhmətkeş, təbiətlə həmahəng olan insanlar, qədimliklə müasirliyin vəhdətində tarix, şəhər modelinin tətbiq olunduğu yurd yerləri və ən əsası, soyuq qış, isti yay demədən Vətəni qorumaq, bu yolda canından keçmək nümunəsi yaşayır Əlincəçay boyunca. Ərazinə vardığın andan etibarən Naxçıvanın may, iyun aylarındakı rayihəsinin – iydə çiçəklərinin sehrinə düşürsən. Səhərin sübh çağında, dan yeri ağarmamış həzin mehə və qoyun-quzunu yerbəyer edən çobanların səsinə qarışaraq avtomobilin pəncərəsindən sanki içəri tələsən bu qoxu bizə əsl kənd mühitində olduğumuzu xatırladır. Ərazinin çöl-çəmənlikləri, bərəkətli taxıl zəmiləri dəniz kimi dalğalanır, yaz yağışından sonra cana gələn dərələr, düzlər göz oxşayır. Doğrusu, bu il yağışların bir az gec yağması, xüsusən təsərrüfat adamlarını qorxutmuşdu, amma Uca Yaradan yenə də ulu yurdun yağış payını bu ellərə bəxş etdi. El-obadakı insanların zəhmətini, əməyini, dövlətin də dəstəyini nəzərə alsaq, deməli, il yenə də barlı-bərəkətli olacaq.

Mavi səma, bəyaz buludlar, yenicə ağaran dan yeri, əzəmətli Haçadağ, yaşıl örpəkli düzlər, çəmənlər... Ağıllı telefonun ekranına bir dəfə toxunmaqla bu məqamı tarixləşdirirəm. Culfanın möhtəşəm təbiət abidəsi – yaşı minilliklərlə ölçülən Naxçıvan torpağının rəmzi Haçadağ Günəşin zərrin şüalarına boyanaraq səhərin erkən çağında sanki göz qamaşdırır. Qətiyyən mövzudan, məqsəddən uzaqlaşdığımı düşünməyin.



Əlincəçayın mənbəyinə çatana kimi gördüklərimi, təəssüratlarımı qələmə almağı jurnalist borcu və marağı hesab edirəm. Yolumuz uzundur və hələ qarşıda Əbrəqunus, Bənəniyar, Saltaq, Qazançı, Milax, Ərəfsə kimi kəndlər var. Kim bilir, bizi qarşıda daha hansı mənzərələr və reallıqlar gözləyir... Sağ tərəfdə Haçadağın müşayiəti ilə yolumuza davam edirik. Dönüb ətrafa baxarkən qeyri-ixtiyarı düşünürəm: insan təbiətin bir parçasıdır. Sən təbiətə necə yanaşırsansa, o da eyni münasibəti sənə qaytarır. Təbiətə öz evin kimi baxsan, udmağa təmiz havan, yeməyə barın-bərəkətin olacaq. Ey yolçu, bir bax Əbrəqunusa gedən yolun kənarlarında ağaclar necə də nizamla, səliqə ilə salınıb, sanki yaşıl bir tunelin içində irəliləyirsən. Naxçıvan kimi kəskin kontinental iqlim şəraitinə malik bir diyarda yaşıllıq salmaq, onu böyüdüb ərsəyə gətirmək elə də asan məsələ deyil. Bu mənə görə biz naxçıvanlıların torpaq eşqi, təbiət vurğunluğudur.

Yol kənarlarında hər kəs təsərrüfat işləri ilə məşğuldur. Ömrünü torpağa bağlayanlar üçün iş saatı səhərin erkən vaxtlarında başlayır. İsti düşməmiş kartof "boğazlanıb" dibinə vər qoyulmalı, tərəvəz əkini sahələri suvarılmalı, bağlar dərmanlanmalı, mal-qara örüşə çıxarılmalıdır. Əbrəqunusdakı sürətlə yanından ötüb keçdiyimiz müasir məscid və mərasim evinə də bir ştrix vurmağı vacib hesab edirəm. Deməli, dini və mənəvi dəyərlər bu el-obada da yaşadılır. Hər kənddə məscidin və yas məclislərini rahat şəkildə təşkil etmək üçün tikilən mərasim evlərinin olması son illər naxçıvanlılar üçün yazılmamış qanuna çevrilib. Qədim diyar bu sahəyə də öz möhürünü vurub, yaxşı bir ənənə formalaşıb. İndi mərhumun yiyəsi mərasimə gələn qonaqları qarşılamaq üçün çadır, qab-qaşıq dalınca düşmür, soyuğun, istinin dərdini çəkmir. El birliyi ilə tikilən mərasim



evlərində hər cür şərait mövcuddur. Necə deyərlər, el bir olsa, dağ oynadar yerindən...

Əbrəqunus Bənəniyarla iç-içədir, sanki bu kəndlər bir-birinə qarışıb. Bu tərəflərin ən böyük yaşayış məntəqəsi olan Bənəniyarda hansı həyətə boylansan, üzümlüklərə rast gəlmək olar. Bu, illərin təsərrüfatçılıq ənənəsidir. Hələ Sovetlər Birliyi dönəmində – daha dəqiq desək, ötən əsrin 70-ci illərində Bənəniyar üzümü şirəliliyinə görə ittifaq miqyasında ən yüksəkkeyfiyyətli üzüm sortu hesab olunurdu. İndi də Naxçıvan bazarında Bənəniyar üzümü alıcıların ən dəyərli istehlak məhsullarından hesab olunur. May-iyun aylarında isə üzüm bağlarında yarpağın tədarük vaxtıdır. Əl-qolunu çırmalayıb evdarlıqla məşğul olan qadınlar yarpaq dolması – bu ləziz milli yeməyimizi qışda da bişirmək üçün şorabaya qoyulmuş yarpaq hazırlayırlar.

Müasir Naxçıvanın siması: mistika, xəyal yox, gerçəklik, həqiqət. Uzaqdan baxanda sanki kürəyini Haçadağa dayayan Saltaq məktəbini görəndə bu fikri yenidən xatırlamağı özümə borc bilirəm. Kənardan imarət kimi ucalan bu tikili göstəricilərinə görə rekordları alt-üst edən hansısa nüfuzlu ali təhsil ocağının tədris korpusu deyil, Saltaqda böyüyən gənclik üçün inşa olunan kənd məktəbidir. Yeri gəlmişkən deyim ki, indi nəinki Saltaqda, eləcə də bu qol üstündə yerləşən bütün kəndlərdə dövlət müasir kənd modelini tətbiq edib, yollar salıb, körpülər, məktəblər, kənd və xidmət mərkəzləri tikib. Bu bölgələrimizdə mavi yanacaq, elektrik enerjisi daimidir, insanlar ən ucqar dağ və sərhəd kəndlərində belə sürətli internetin imkanlarından faydalanırlar. Blokada şəraitində bütün bunları qurub-yaratmaq, müasir Naxçıvanı ərsəyə gətirmək üçün gecəli-gündüzlü çalışmağın real nümunəsidir.

Əlincəçay boyunca həm də bir tarix yaşayır. Dünya fatehi Əmir Teymura 14 il təslim olmayan Əlincəqala, hürufiliyin banisi Fəzlullah Nəiminin Xanəgah kəndindəki məqbərəsi... Mərdlik simvolu, zirvəsində üçrəngli Azərbaycan bayrağını qürurla dalğalandıran Əlincə qalası tarixə dəyər verənlərin himayəsi sayəsində ikinci həyatına qovuşub.




İndi dünyanın dörd bir yanından Əlincəqalanı görmək üçün vaxt və maddiyyat sərf edib müqəddəs torpağa – Nuhun yurdu Naxçıvana gələn qonaqlar var. Sosial mediada Əlincəqalanı vəsf edən saysız-hesabsız videoçarxları, fotosessiyaları izləyən zaman onun əzəməti, möhtəşəmliyi ilə qürurlanırıq. Xarici turistlər isə çox vaxt buranı dünyaca məşhur Maçu Piçu ilə müqayisə edirlər. Amma bura, sözün həqiqi mənasında, dağ vüqarı, təkrarsızlığı, ucalığı, bərpa olunub yenidən həyata vəsiqə almağı ilə bizim Əlincəqaladır. Çünki onun zirvəsində xalqımın mətinliyi, igidliyi, qəhrəmanlığı, yadelliyə qarşı mübarizə əzmi yaşayır.

Əlincə qalasını ötüb keçdikdən sonra Əlincəçay sədasını da duymaq mümkündür. Bu səs məni Qazançı kəndinə, oradan da bir neçə il bundan öncə təmir olunan Qazançı körpüsünə gətirib çıxarır. Möhtəşəm memarlıq abidəsi Əlincə çayına qucaq açıb. Üzüaşağı tələsən gur su daşlara dəyib qulaqbatıran zaman öz-özümə sual verirəm: kim bilir bu yerlərin – dağ-dərənin, Haçadağın, Əlincəqalanın, bir vaxtlar karvan yollarının keçdiyi Qazançı körpüsünün, tarixi Qazançı qalasının yaşını? Neçə-neçə nəsillər, əcdadlarımız üçün doğma od-ocaq, isti ana qucağı olub bu ellər. İndi bizə əmanətdir, biz qayğısını, sığalını çəkirik.

"Yolçu yolunda gərək", – deyib Qazançıdan üzüyuxarı yol alıram. Təpələrin başına ilan kimi qıvrılan yol bəzi yerlərdə sərt döngələrlə əvəz olunur və bu, sürücüdən ustalıq, peşəkarlıq tələb edir. Milax kəndinin qonağıyıq. Milaxlılar Əlincəçay vadisinin ən zəhmətkeşi kimi tanınırlar. Gün çıxandan gün batana kimi nə zaman bu yol üstündən keçsən, onları iş başında – təsərrüfatla, əkin-biçinlə məşğul olan görərsən. Bəlkə də, elə məşhur Milax pomidorunun, xiyarının, lobyasının, almasının dadının təməlində bu insanların zəhməti, işə sevgisi dayanır. Bu tərəfin camaatı deyər ki, milaxlılar istər tərəvəz əkini sahələrini, istərsə də su arxlarını mil, yəni düz formada çəkərlər. Əlincəçay da kənd ərazisindən məhz bu formada axır. Ehtimala görə, bütün bunlar "Milax" sözünün etimologiyasında dayanan amillərdəndir. Kəndin qurtaracağında dayanıb şəhidlərimizin əziz xatirəsinə tikilmiş bulaq-abidədən bir parç su içməyi də unutmuram. Onu da deyim ki, yerli əhalinin təşəbbüsü ilə Ərəzindən başlamış Boyəhmədədək əksər kəndlərdə bu cür bulaq-abidələr inşa edilib. Bulaqlar bizim üçün şəhidlərimiz qədər əzizdir. Çünki hər su damlasında saltaqlı Amin Gülməmmədovun, qızılcalı Kənan Rzayevin, əbrəqunuslu Miryasin Seyidovun, kırnalı Ramazan Göydağlının, camaldınlı Şamil Babayevin, Vətən müharibəsində "Naxçıvan canavarı" kimi döyüş meydanında ad qoyan qazançılı Vəli Quliyevin, eləcə də Tarixi Zəfərdə şanlı imzası olan digər qəhrəman oğullarımızın xatirəsi, ruhu yaşayır. "Vətən sizə minnətdardır", – deyib üz tuturam Ərəfsəyə.

Bura Ərəfsədir. Naxçıvanda adı dillər əzbəri olan balı və cəvizi ilə tanınan kənd. Elə ki yaz ayları gəldi, nəinki Ərəfsədən, eləcə də aran kəndlərdən olan qonaq-qara bu yurdun dağında, dərəsində min bir dərdin dərmanı olan şəfalı otların axtarışına çıxır. Ata-babalarımız ta qədimdən məlhəm kimi iynə-dərman əvəzinə bu yurdun dağlarında bitən yarpız, kəklikotu, səhləb, qantəpər, solmazçiçək, çobanyastığı, aslan pəncəsi, çöl mixəyi, böyrəkotu, dağ zirəsi, gülxətmi kimi bitkilərdən istifadə ediblər. İndi Ərəfsədə çaşırın, çöl kəvərinin, baldırğanın, cacıq, çiriş özəyinin də əsl vaxtıdır. Ələyəz, əvəlik kimi bitkilər isə hörülərək qurudulub qış aylarına saxlanılır. Soyuq qışda bişirilən isti yeməklərə vurulan ələyəzin, əvəliyin dadından doymaq olmur. Mayın sonu, iyunun əvvəllərində mütləq siz də yolunuzu bu həndəvərdən salın. Əmin olun ki, təbiət öz səxavətini sizdən əsirgəməyəcək. Gedəndə heybəniz dolu, kefiniz kök ayrılacaqsınız bu ellərdən. Amma bir məsələdə də diqqətli olun ki, bu bitkiləri yığarkən qazma-kürəklə kökündən kəsib atmayın, təbiətə qənim kəsilməyin. Necə deyərlər, onların da dilini bilmək lazımdır. Hansısa dərman bitkisinin, göbələyin, çaşırın, baldırğanın dibinə balta vuranda gələn il sizi həmin yerdə yamyaşıl bitki yox, boz torpaq qarşılayacaq.

Yaxınlaşmışam, çox yaxınlaşmışam. Elə ki Ərəfsəni keçib üzü Ləkətağa, Boyəhmədə yol aldın, Əlincəçayın nəğməsi də daha yaxından duyulur və ona bir köynək daha yaxın olursan. Əsrlərə şahidlik edən, bu gün tarixi görkəmi özünə qaytarılan Ləkətağ körpüsündən baxanda uzaqda başı qənd kimi ağaran dağlardan, o dağların ətəyində yerləşən çeşmələrdən qidalanır bu çay. Bu tərəflərin dağına, daşına, dərəsinə, çeşməsinə bələdçiliyi olanlar həvəslə danışır Əlincəçaydan. Bu qolda yerləşən kəndləri Əlincəçaysız təsəvvür etmək olarmı, İlahi? Sanki dünya binə olandan bəri Əlincəçay Boyəhmədin, Ləkətağın, Ərəfsənin, Milax və üzüaşağı yerləşən digər obaların nəqşi, bəzəyi, yaraşığı olub. Sarı çeşmə, Çətəndaş çeşməsi, Daşlı yurd çeşməsi, Qəcirdaş çeşməsi, Ağ suyun çeşməsi dağda qardaş, yolda yoldaş olub Ləkətağ çayına. Qanlıdərə çeşməsi, Şəkil çeşmə, Soyuq bulaq çeşməsi, Xəşələr bulağı, Göy dağın çeşmələri isə Boyəhməd istiqamətindən gələn Böyük çayı qidalandırır. Bu iki çay Ləkətağda bir-birinə qovuşur və Əlincə çayını əmələ gətirir. Bəlkə də, bu kəndlərin havasındakı təmizliyin, sərinliyin sirri də Əlincəçaydadır. Yay aylarında çeşmələrin suyundan içib Boyəhmədin Dəvəboynu, Tək arxac, Qaraçı yurdu, Ləkətağın Kola dərəsi, Qəmişli yurdu, Bərxudar dərəsi yaylaqlarında bəslənən qoyun-quzu yaxşı ət, süd verir. Bir neçə gün sonra yaylaq mövsümü başlayır və bu yerlər çobanların tütək səsi, bişirdikləri halal təndir çörəyinin ləziz ətri ilə yenidən canlanacaq. Böyük Məmməd Araz demiş:

*Bu minvalla çörək bişib,*
*çoban çörəyi.*
*Halaldı bu çörək!*
*Baldı bu çörək!*

Böyük çayın və Ləkətağ çayının qovuşub Əlincəçayı yaratdığı yerdə dövlətin dəstəyi və ləkətağlı Dünyamalı kişinin təşəbbüsü ilə füsunkar bir turizm obyekti – "Dağ havası" ailəvi istirahət mərkəzi də salınıb. Bu ellər qonaqpərvərdir. Ləkətağın, Boyəhmədin geniş düzləri, dərələri, çay kənarları səxavətlidir, ona sarı gələn heç kəsə yad münasibət bəsləməz. Harada istəsəniz, qonaq ola bilərsiniz: Dünyamalı Hacıyevin yaratdığı istirahət mərkəzində, geniş təbiət qoynunda. Yetər ki, Naxçıvanı kəşf etmək üçün təşəbbüskar olaq. Bir gün özümüzə, ailəmizə vaxt ayıraq və Əlincəçayın zümzüməsi ilə bu tərəflərə yol alaq. Möhtəşəm təbiət gözəlinə – Əlincəçaya üz tutub deyirəm: – Səsin, ünün, şaqraq sədan heç vaxt Culfa torpağından, Naxçıvandan əskik olmasın. Aylar, illər ötüb keçsin, zaman dəyişsin, bircə sən olduğun kimi qal. Daim coş, çağla, kükrəyən nəğmənin eşqi ilə yola çıxıb sənin görüşünə gələnləri valeh et. Bənzərsiz, təkrarsız nəğməndən heç yerdə yoxdur. Həmkarımız, şair Qafar Qərib əbəs yerə səni belə mədh etmir:



*Dəmirlinin bulaqları qaynağın,*
*Yenə coşub-çağlayırsan bu bahar.*
*Səsin qulağımda nəğməyə dönür,*
*Belə gözəl şərqi, söylə, harda var?*

***P.S.*** *Dəmirli yaylağına gedən yolun sol tərəfindəki təpələrin ətəyində qaynayıb çıxan mineral bulaqlar Naxçıvanın təbii sərvətlərindəndir. Ərazidəki mineral su quyusunun baxıma, diqqətə ehtiyacı var. İnanırıq ki, yaxın gələcəkdə bu təbii sərvətlərimizin də tibbi-bioloji əhəmiyyəti alimlərimiz tərəfindən araşdırılacaq, kütləvi istehsal olunmaqla əhalinin istifadəsinə veriləcək.*

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***

# Muxtar respublikanın rayonlarında ilk dəfə

***Hələ orta əsrlərdə səyyahların "meyvə cənnəti" adlandırdıqları Naxçıvanda hər mövsümün adı ilə deyilən meyvələrinin içərisində biri də var ki, yaz gələn kimi bütün ağaclardan qabaq çiçək açır, məhsul verir. Azərbaycanda adla deyilən Naxçıvan göycəsi mayın ortalarından iyulun axırlarına kimi yeşiklərə, zənbillərə yığılıb Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı, başqa ölkələrə də göndərilir, göycə bu təsərrüfat sahəsi ilə məşğul olanların bol qazanc mənbəyinə çevrilir. Naxçıvanda, əsasən, Arazboyu maili düzənlik ərazilərdə daha məhsuldar göycə bağlarının salınması üçün əlverişli ekoloji şərait vardır. Muxtar respublikada meyvəçiliyin inkişaf etdirilməsinə göstərilən diqqət və qayğı nəticəsində göycə kimi brend məhsullarımızın istehsalını daha da artırılması, bu sahədə elmi tədqiqatların aparılması, bağçılıqda dünya standartlarının mənimsənilməsi üçün geniş imkanlar açıb. Hər il ənənə halına gələn "Göycə" festivallarının keçirilməsi təsərrüfatçıların, sakinlərin üreyincə olmaqla yanaşı, diyarımızın qonaqlarında da böyük maraq doğurur, Naxçıvanın bu brend məhsulunun tanıdılmasına xidmət edir. Tədqirəlayiq haldır ki, bu il "Göycə" festivalı Naxçıvan şəhərindən sonra muxtar respublikanın rayonlarında da keçirilib.***

Şərur rayonunun tarixi keçmişini təbiətin zənginliyi ilə qovuşduran geniş meydan "Göycə" festivalına ilk dəfə şahidlik edirdi. Festival rəngarəngliyi və məhsul çeşidliliyi ilə sakinlərin tədbirdə kütləvi iştirakına səbəb olmuşdu.

"Arpaçay" İnstrumental Ansamblının müşayiəti ilə oxunan nəğmələr və xalq mahnıları iştirakçılarda ayrı bir ab-hava yaratmışdı. "Şərur qönçələri" Uşaq Yallı Ansamblı, Uşaq musiqi məktəblərinin şagirdləri ifa etdikləri rəqslərlə şənliyi daha da rövnəqləndirmişdilər. Eyni zamanda ictimai iaşə xidmətlərinin təşkili



də yüksək səviyyədə idi. Festivalda göycədən hazırlanan mürəbbə, cem, kompot və araqların, o cümlədən əl işlərinin sərgisi də təşkil olunmuşdu. Onu da qeyd edək ki, alıcı marağı böyük idi.

Festivalda ailə təsərrüfatçıları tərəfindən 3 ton göycə, 500 kiloqram ərik, 150 kiloqram gilənar, 30 litr göycə kompotu, 30 kiloqram göycə turşusu, 100 ədəd göycə lavaşanası, 50 litr göycə və 50 litr digər meyvə araqları, 10 kiloqram göycə və 30 kiloqram digər meyvə dondurmaları, kətələr, müxtəlif çeşiddə şirniyyatlar çıxarılmış, 11 min 600 manat dəyərində məhsul satılmışdır.

Qeyd edək ki, festivala gələnlər müxtəlif çeşiddə meyvələrin deyil, həmçinin mis qabda hazırlanan yeməklərin, kətələrin hazırlanması və süfrəyə təqdim olunmasını canlı olaraq izləmək, kətə çeşidlərinin dadına baxmaq imkanı da əldə etmişlər.

Şərur şəhər sakini, ziyalı ***Ünbülbanu Musayeva*** bildirdi ki, tarixən Naxçıvanda ən dadlı göycə Şərurda yetişib. Bu da Şərur torpaqlarının mineral və bolsulu olması ilə əlaqələndirilir. Bu cür tədbirlərin keçirilməsi barlı-bəhərli bağlarımızdan topladığımız, təbiətimizin sovqatı olan meyvələrin tanıdılması, sərgi-satışının təşkil olunması sakinlər üçün faydalıdır. Bu gün Şərur şəhərinin sakinləri göycədən hazırlanan turşu, mürəbbə, kompot və araqları buradan tapa bilərlər. Hələ göycədən hazırlanan əl işləri insanı lap valeh edir. Məhsulların qiymətləri də münasibdir. Bu gözəl tədbirə görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

Daşarx kəndindən gələn ***Nadir Abdullayev*** dedi: – Naxçıvan şəhərində keçirilən "Göycə" festivalında I yerə layiq görülmüşdüm. "Göycə" festivalının ilk dəfədir ki, rayonumuzda keçirilməsi biz ailə təsərrüfatçılarını çox sevindirdi. Bundan faydalanaraq 150 kiloqram göycə, 120 kiloqram ərik və 100 kiloqram gilənar, həmçinin çeşid-çeşid göycədən hazırlanmış məhsullar və əl işlərimizi də festivala gətirmişik.

Danyeri kənd sakini, ailə təsərrüfatçısı ***Yaqub Həsənov*** bildirdi ki, həyətyanı sahəsində yetişdirdiyi göycə bağından festivala 70 kiloqram göycə məhsulu gətirib. Festivalın yenicə başlanmasına baxmayaraq, gətirdiyi məhsulun, demək olar ki, yarısı artıq satılıb. Bu cür festivalların rayonda çox keçirilməsini arzu edən təsərrüfatçı yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirdi.

Babək rayonunda keçirilən "Göycə" festivalına Babək şəhərindən, Nehrəm və Cəhri qəsəbələrindən, eləcə də Məzrə, Şıxmahmud, Uzunoba, Qahab, Naxışnərgiz, Payız, Didivar və Kültəpə kəndlərindən 30 fərdi təsərrüfat sahibi bağlarında yetişdirdikləri məhsulu çıxarıblar. 1,5 tondan çox müxtəlif göycə növünün satışa çıxarıldığı festivalda, həmçinin göycədən hazırlanan məhsullar da alıcılar tərəfindən maraqla qarşılandı.



Ənənəvi "Göycə" festivalında dəfələrlə iştirak edən təsərrüfatçı ***Hüseyn Heydərov*** "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan "Göycə" festivalında "Ən yaxşı göycə" müsabiqəsi üzrə birinci dərəcəli diploma təltif edilib. Təcrübəli təsərrüfatçı dedi: – Uzun illərdir, çəkdiyim əziyyətin bəhrəsini görmək məni çox xoşbəxt edir. Bərəkətli Nəzərabad torpağında 1 hektar ərazidə göycə bağı salmışam. Torpağımız münbit, suyumuz boldur. Dövlətimizin təsərrüfat sahiblərinə göstərdiyi diqqət və qayğı ilə torpaqdan ikiəlli yapışmışam. Pedaqoji fəaliyyətlə məşğul olsam da, vaxtımın bir hissəsini bu bağa sərf edirəm. Festivala 500 kiloqrama yaxın məhsul çıxarmışdım, hamısı satılıb. Yaradılan əlverişli şəraitə görə minnətdarlığımı bildirirəm.

Nehrəm qəsəbəsindən olan ***Cəmşid Həsənov*** hər il təşkil olunan festivallarda iştirak edir. Təcrübəli təsərrüfatçı bu dəfə festivala ərik, göycə, alça, qovun, qarpız araqları, alça və göycə turşuları çıxarıb. O dedi ki, hər il göycəyə olan marağın daha da artdığının şahidi olur. Elə bu maraq, tələbat da imkan verir ki, təsərrüfatçılar dövlətin yaratdığı şəraitdən istifadə edib, bu məhsulun istehsalını daha da artırsınlar. Nəticədə, həm qazanır, həm də alıcılar ekoloji cəhətdən təbii və keyfiyyətli məhsul almış olurlar.

Sədərək rayonunda keçirilən festivala da rayon sakinləri və təsərrüfatçılar tərəfindən maraq böyük idi. Əslən Qazax rayonundan olan Səkinə xanımın həyat yoldaşı 15 ildir, sərhədlərimizin keşiyində dayanır, o da öz övladları ilə birlikdə festivala gəlib. Deyir ki, Qazax rayonunun da kəndlərində bu meyvəyə bənzəyən "sultan alça" dediyimiz bir alça növü var. Amma Naxçıvan göycəsi qədər dadlı deyil. Hər il Naxçıvan şəhərində keçirilən festivala imkan tapdıqca gedir, oradan göycə və ondan hazırlanan turşu, mürəbbə alıb gətirir, Qazaxda və Bakıda yaşayan qohumlarıma göndərirdim. Festivalın Sədərək rayonunda



da keçirilməsi çox yaxşı oldu. Gəldik, həm gəzdik, həm də dadlı məhsullardan satın aldıq.

Ailə təsərrüfatçısı ***Nazilə Əliyeva*** dedi ki, göycənin qurusunu və turşusunu hazırlamaqla yanaşı, ondan mürəbbə də bişirir. Turşu üçün tam yetişməmiş göycə seçilir. Yuyulmuş göycələri şüşə balonlara yığır, içərisinə sarımsaq, şüyüd, nanə qoyur, duz, sirkə əlavə edib, üzərinə qaynar su töküb bağlayırıq. Bu üsuldan başqa onu şoraba şəklində də hazırlamaq olar. Göycənin tam yetişmişindən cem, bir az dəymişindən isə mürəbbə hazırlayırıq. Onu da bildirdi ki, mürəbbəni hazırlamaq üçün qabığı soyulmuş göycələri sodalı suya salır, bir az saxlayır. Sonra çəkisinə görə şəkər tozu əlavə edir, meyvənin öz suyunun çıxmasını gözləyir. Ocağın üzərində əvvəl vam odda bir dəfə qaynadır, soyudub ikinci dəfə bişirir. Mürəbbəni soyutduqdan sonra balonlara yığır. Bu mürəbbə turşməzə olduğuna görə soyuqdəymədə və yüksək təzyiqdə istifadə olunanda fayda verir. Lavaşana hazırlamaq üçün göycələr qaynadılır, dənəsi çıxarılır, duz əlavə edilərək qatılaşana kimi qaynadılır, soyudulub məcməyilərə tökülür, qurumağa qoyulur. Lavaşana boğaz ağrılarına və həzmsizliyə kömək edir. Onu suda isladıb həmin suyu içmək faydalıdır.

2016-cı ildən başlayaraq Naxçıvan şəhərində keçirilən "Göycə" festivalı bu il ilk dəfə olaraq Kəngərli rayonunda da keçirilib. Rayonun Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında təşkil olunan festivala torpaq mülkiyyətçiləri tərəfindən göycə və göycədən hazırlanmış müxtəlif növdə məhsullar çıxarılıb. Qarabağlar kəndindən ailə təsərrüfatçısı Pakizə İsmayılovanın hazırladığı göycə kompotu, göycə turşusu, göycə lavaşanası, göycə cemi və mürəbbəsi, Çalxanqala kənd sakini, ailə təsərrüfatçısı Vüqar Məmmədovun iştirakçılara təqdim etdiyi göycədən hazırlanmış müxtəlif




növ araqlar, gilənar, üzüm və xar tutdan hazırlanmış çaxırlar iştirakçılar tərəfindən maraqla qarşılanıb. Festivalda alıcılara bu məhsullardan dadmaq və rahat əldə etmək imkanı yaradılıb, musiqi kollektivləri tərəfindən bir-birindən gözəl ifalar təqdim olunub.

Rayonun Xıncab kəndində yaşayan ailə təsərrüfatçısı ***Halıqverdi Halıqverdiyev*** bizimlə söhbətində dedi: – Ailə təsərrüfatlarına göstərilən qayğı bu gün muxtar respublikanın bir çox zəhmətsevər insanı kimi məni də bu sahədə fəaliyyət göstərməyə sövq edib. Zəhmətimizlə əldə etdiyimiz məhsulların, gördüyünüz kimi, muxtar respublika və rayon səviyyəli festival və yarmarkalarda satışını həyata keçiririk. Bu gün də festivala göycə, tut və müxtəlif növ gilaslar çıxarmışıq. Bundan əvvəl "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilmiş "Göycə" festivalında da iştirak etmişdim. Hər iki festivalda yaxşı qazanc əldə etmişəm. Bu cür festivalların təşkil olunması hər birimizi sevindirir, buna görə də təşkilatçılara minnətdarlığımı bildiririk.

Şahtaxtı kənd sakini ***Nemət Qənbərov*** isə qeyd etdi ki, bu kimi festivalların rayon mərkəzlərində keçirilməsi olduqca faydalıdır: – Artıq bir neçə ildir ki, muxtar respublikamızın paytaxt şəhərində müxtəlif festivallar və yarmarkaların təşkili hər kəsin ürəyincədir. Rayon mərkəzlərində də belə festivalların keçirilməsi sevindiricidir. Çünki sakinlər uzaq məsafə qət etmədən bu kimi tədbirlərdə iştirak edir, təsərrüfatçılar öz məhsullarını sata bilirlər. Ümid edirik ki, belə festivallar bundan sonra da keçiriləcək. Bu işdə əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm.

*Qeyd edək ki, muxtar respublikanın rayonlarında keçirilən festivallarda müxtəlif xalq yaradıcılığı nümunələri, məktəbdənkənar təhsil müəssisələrində dərnəklərə cəlb olunan şagirdlərin, məhdud fiziki imkanlı şəxslərin əl işləri də nümayiş etdirilib. Həm məhsul bolluğu, həm də yüksək səviyyəli tərtibatı ilə diqqəti çəkən festivalda rayonlarda fəaliyyət göstərən ailə təsərrüfatlarının məhsullarının çoxu satılıb.*

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin may ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3430 | 291,6 | 291,6 | 100,0 |
| 2. | Şərur rayonu | 964 | 79,6 | 79,6 | 100,0 |
| 3. | Babək rayonu | 1512 | 122,9 | 122,9 | 100,0 |
| 4. | Ordubad rayonu | 857 | 70,1 | 70,1 | 100,0 |
| 5. | Culfa rayonu | 792 | 65,5 | 65,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 702 | 59,4 | 59,4 | 100,0 |
| 7. | Şahbuz rayonu | 274 | 22,5 | 22,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 172 | 14,1 | 14,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 33922 | 3411,2 | 3440,7 | 100,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **42625** | **4136,9** | **4166,4** | **100,7** |

**Qeyd:** May ayında texniki itki nəzərə alınmaqla verilən 42 milyon 625 min kilovat-saat elektrik enerjisinin dəyəri 4 milyon 136 min 900 manat olmuş, cəmi 4 milyon 166 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,7 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin may ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Babək rayonu | 1162961 | 184519 | 184539 | 100,0 |
| 2. | Ordubad rayonu | 506287 | 75499 | 75506 | 100,0 |
| 3. | Naxçıvan şəhəri | 1387375 | 213752 | 213771 | 100,0 |
| 4. | Şərur rayonu | 938959 | 140697 | 140705 | 100,0 |
| 5. | Kəngərli rayonu | 362445 | 58341 | 58344 | 100,0 |
| 6. | Culfa rayonu | 537930 | 80830 | 80832 | 100,0 |
| 7. | Şahbuz rayonu | 365528 | 56170 | 56171 | 100,0 |
| 8. | Sədərək rayonu | 146629 | 20772 | 20772 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10055765 | 1943133 | 2055422 | 105,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **15463879** | **2773713** | **2886062** | **104,1** |

***İtmişdir***

Quliyev Əmrah Akif oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 505